# QAFQAZ TƏBİƏT FONDU VƏ AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ ARASINDA

## ÇƏRÇİVƏ SAZİŞİ

Hazırkı Çərçivə Sazişi (bundan sonra "Saziş" adlandırılacaqdır) Almaniyanın Hessen qanunvericiliyi əsasında təsis edilmiş Qafqaz Təbiət Fondu (bundan sonra "QTF" adlandırılacaqdır) və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra "Nazirlik" adlandırılacaqdır) arasında imzalanır.

QTF-nin əsas məqsədlərindən biri Azərbaycanda A Qoşmasında qeyd olunmuş Xüsusi Mühafizə Olunan Prioritet Təbiət Ərazilərinin hər birinin ödənilmiş xərclərinə dəstək verilməsi üçün qrantların ayrılmasından ibarət olduğunu nəzərə alaraq;

QTF həmçinin XMOPTƏ-ləri üzrə idareetmə planlarının işlənib hazırlanması baxımından konkret xərclərin maliyyələşdirilməsi üçün qrantlar ayıra biləcəyini nəzərə alaraq; və

QTF-nin Azərbaycanda öz məqsədini həyata keçirə bilməsi baxımından əsasların müəyyənləşdirilməsi üçün Tərəflərin hazırkı Sazişi bağlamaq niyyətində olduğunu nəzərə alaraq,

Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

### § 1. Müəyyən edilmiş müəyyən terminlər

Hazırkı Sazişdə böyük hərflərlə qeyd edilmiş və mətndə müəyyən edilməmiş terminlərin müəyyən hissəsi Əlavə A-da göstərilmiş mənaları kəsb edir.

### § 2. XMOPTƏ-lərinin ödənilmiş xərclərinin dəstəklənməsi üçün Qrantlar

XMOPTƏ-nin ödənilmiş xərclərini maliyyələşdirmək üçün qrantlar Nazir və QTF-in İcraçı direktoru (bundan sonra "İcraçı direktor" adlandırılacaq) və ya onların adından fəaliyyət göstərən lazımi səlahiyyətli şəxslər tərəfindən təsdiq olunan və imzalanan Qrant Sazişlərinə uyğun olaraq ayrılır. Aşağıda göstərilmiş 2.2-ci bəndə uyğun olaraq Qrant Sazişləri yalnız Nazirlik və XMOPTƏ tərəfindən təqdim edilən qrant təklifinin QTF-nin Direktorlar Şurası tərəfindən təsdiq olunmasından sonra imzalana bilər.

Hazırkı Çərçivə Sazişi QTF-ni hər hansı qrant ayırmağa və ya Nazirliyi bunun üçün müraciət etməyə məcbur etmir. Qrantların ayrılması üzrə QTF-nin və qrantlar ilə əlaqədar Nazirliyin öhdəlikləri yalnız Qrant Sazişlərinə uyğun olaraq yaranır.

**2.1. Qrantın İcra Müddəti; Birgə Maliyyələşdirmə Tələbləri.** Ödənilmiş xərclərin maliyyələşdirilməsinə yönələn qrantlar Şura tərəfindən qərara alına və Nazirliyə məlumat verildikdən sonra maksimum üç ilədək olan dövr və ya bu cür uzun müddət üzrə XMOPTƏ-nin ödənilmiş xərclərinin bir hissəsi maliyyələşdirilə bilər.

Ödənilmiş xərclərin maliyyələşdirilməsi üçün qrantlar yerinə yetirilməli olan aşağıdakı birgə maliyyələşdirmə tələblərinə cavab verməlidir. Nazirlik (ya birbaşa olaraq, ya da qeyri QTF mənbələri vasitəsilə):

(i) QTF tərəfindən maliyyələşdirilməsi üçün təklif edilən məbləğə ən azı bərabər olan ödənilmiş xərclərin məbləğini maliyyələşdirməli,

(ii) QTF qrantının tələb olunduğu ildən əvvəl ən azı tam bir il ərzində xüsusi mühafizə olunan təbiət əraziləri ("Mövcud Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri") kimi fəaliyyət göstərmiş XMOPTƏ-ləri üzrə cari ilin və əvvəlki iki ilin maliyyələşdirmə səviyyələrinin ən yüksək həddində və daha çox olmaqla istismar məsrəflərini təşkil edən XMOPTƏ-nin ödənilmiş xərclərinin Nazirliyin ümumi illik maliyyələşdirilməsini (inflyasiyaya uyğunlaşdırılmış baza əsasında) təmin etməli, və

(iii) Ödənilmiş xərclərdən başqa XMOPTƏ üzrə büdcədə göstərilən məsrəfləri tam şəkildə maliyyələşdirməlidir.

**2.2. Qrant Təklifləri.**

(i) Əsas Təklif Tələbləri. XMOPTƏ-nin ödənilmiş xərclərinin bir hissəsini əhatə edən hər hansı qrant üzrə Qrant Təklifinə aşağıdakılar daxil edilməlidir:

(a) Qrantın ayrılmalı olduğu birinci il üzrə ("Baza ili") kifayət qədər müfəssəl əməliyyat və ya iş planı ("Əməliyyat Planı");

(b) XMOPTƏ-nin smeta gəlirlərini və xərclərini, eləcə də yuxarıda qeyd olunan 2.1-ci bəndin prinsiplərinə QTF-nin uyğunluğunu göstərməklə (və Nazirliyin maliyyələşdirmə səviyyələrini (və/ya digər maliyyə mənbələrini) təklif edərək) Baza ili və növbəti iki il üzrə büdcə ("Büdcə"); və

(c) İdarəetmə Planı.

hər bir predmet QTF Direktorlar Şurasını qane etməlidir. Şura yalnız XMOPTƏ-yə ilkin qrantın ayrılması üçün İdarəetmə Planı üzrə tələbdən imtina edə bilər. Yeniləşdirməyə dair təqdim edilməsi baxımından İdarəetmə Planının hazırlanması üçün XMOPTƏ-nin və Nazirliyin razılığı qənaətbəxş İdarəetmə Planı olmadan razılaşdırılmış hər hansı qranta daxil ediləcəkdir.

(ii) Əməliyyat Planı, Büdcə və İdarəetmə Planı üzrə Standartlar. Şura Əməliyyat Planı, Büdcə və İdarəetmə Planının hazırkı Sazişə əsasən qrant ayrılması məqsədləri baxımından uyğun olmasını müəyyən edərkən vaxtaşırı təqdim edəcəyi müqayisəli standartlardan (etalon) istifadə edəcəkdir. Əməliyyat Planları, Büdcələr və İdarəetmə Planlarının qiymətləndirilməsi üçün Şuranın istifadə edəcəyi ilkin standartlar bu sənədin B, C və D Əlavələrində müvafiq surətdə göstərilən qaydada ifadə edilir və bildiriş olmadan qarşılıqlı razılıq əsasında dəyişidirilə bilər.

(iii) Forma və Müddət. XMOTPƏ üçün mümkün ödənilmiş xərclərin maliyyələşdirilməsi məqsədilə qrantın ayrılmasına dair təklifi Nazirlik XMOPTƏ adından QTF tərəfindən hazırlanmış formaya uyğun olaraq nəzərdən keçirilməsi məqsədilə vaxtaşırı QTF-yə təqdim edir. Qrant təklifinə Nazirlik tərəfindən nəzərdən keçirilən və təsdiqlənən Büdcə və Əməliyyat Planı kimi elementlər daxil edilir, sözügedən saziş kimi qrant təklifi də Şura tərəfindən təsdiqlənməsini zəruri hesab etdiyi tarixdən əvvəl [üç aydan az olmayan müddətdə] Nazirlik tərəfindən təqdim olunmalıdır.

QTF Büdcədə maliyyələşdirmə səviyyələrini və Büdcənin bütün digər elementlərini Nazirliklə razılaşdırmaqla nəzərdən keçirəcək və təsdiq edəcəkdir. Dəyişikliklər zəruri olduğu təqdirdə, QTF Nazirliklə razılışma əldə ediləcəkdir. Qrant Təklifinin hazırkı 2.2-ci

bəndinin tələbinə uyğun olub-olmadığını qiymətləndirərkən QTF formaya nisbətən məzmunu elə nəzərdən keçirəcəkdir ki, əgər tələb olunan məlumat təqdim edilmiş sənədlərin hər hansı birinə daxil edilərsə, o halda təklif bu Sazişin məqsədləri baxımından müvafiq şəkildə təqdim olunmuş kimi hesab ediləcəkdir.

**2.3. Qrant Sazişləri.** XMOPTƏ-nin Ödənilmiş Xərclərinin maliyyələşdirilməsi üçün Qrant sazişləri *xüsusən* razılaşdırılmalı olduğu kimi QTF-yə təqdim edilməli olan hesabatları əhatə edən müddəalar, ödəniş vaxtının müəyyənləşdirilməsi, ödəniş şərtləri, ödəniş mexanizmi, sənədlərin istifadəsi, əməkdaşlıq və digər məsələləri ehtiva etməlidir. İlkin qrant ilə bağlı olaraq QTF və Nazirlik sonrakı razılaşmalar üçün nümunə kimi götürülə bilən qrant sazişi formasının razılaşdırılmasına səy göstərməlidirlər. QTF və Nazirlik ilkin qrant sazişinin müddəalarının Əlavə E-də təsvir edilmiş müddəalara əsaslanacağını hesab edirlər.

## § 3. İdarəetmə Planının Hazırlanması Xərclərinin Dəstəklənməsi üçün Qrantlar

**3.1. İdarəetmə Planının Hazırlanması Xərcləri.** Güman olunur ki, D Əlavəsində ilkin surətdə əks etdirildiyi kimi bir çox XMOPTƏ-ləri QTF-nin standartlarını yerinə yetirən İdarəetmə Planının hazırlanması üçün maliyyə vəsaitlərinə və ya imkanlara malik deyil və planın hazırlanmasına kömək etmək üçün məsləhətçilərin işə cəlb olunmasına ehtiyac duyula bilər. İdarəetmə Planının və ya onun hər hansı hissəsinin (o cümlədən, planların ingilis dilinə tərcümə edilməsi xərcləri) hazırlanmasına köməklik göstərmək üçün Nazirlik və yaxud XMOPTƏ tərəfindən işə götürülən xarici məsləhətçilərin əmək haqları və məsrəfləri "Planın Hazırlanması Xərcləri" kimi hazırkı sənəddə istinad edilir.

QTF XMOPTƏ-nin ödənilmiş xərclərinin maliyyələşdirilməsi üçün qrant təklifinə dəstək olaraq təqdim edilməsi nəzərdə tutulmuş İdarəetmə Planı üzrə planın hazırlanmasi xərclərinin 50%-inə qədər olan məbləği maliyyələşdirə bilər. Nazirlik xərclərin balansını maliyyələşdirməli və yaxud bunu üçüncü tərəfə həvalə etməlidir.

Planın hazırlanması xərclərinin maliyyələşdirilməsi üçün QTF qrantları Nazirlik tərəfindən XMOPTƏ-nin adından təqdim etdiyi qrant təklifinin Şura tərəfindən təsdiq olunmasından sonra, habelə aşağıdakı 3.2-ci bənddə təsvir edildiyi kimi təsdiq edilmiş Qrant Sazişlərinə əsasən ayrılır və İcraçı direktor tərəfindən imzalanır.

**3.2. Qrant Təklifləri.** Mümkün maliyyələşdirmə baxımından QTF tərəfindən nəzərdən keçirilməsi üçün qrant təklifi aşağıdakı tələbləri yerinə yetirməlidir:

(i) QTF tərəfindən əsaslı şəkildə hazırlanmış Planın hazırlanması xərcləri və Qrant Təklifi Forması vaxtaşırı olaraq Nazirlik tərəfindən XMOPTƏ adından təqdim edilməlidir;

(ii) Məsləhətçi əvvəlcədən Nazirlik və QTF tərəfindən təsdiq edilmiş məsləhətçilər siyahısından seçilir və razılaşdırılmış formada texniki tapşırıqlar (mandat) ilə təmin edilir; və

(iii) Texniki tapşırıqlar razılaşdırılmış siyahıdan seçilmiş ən azı üç mümkün xidmət təminatçısına göndərilir və qrant təklifi ilə yanaşı müvafiq təkliflər ona daxil edilir.

**3.3. Qrant Sazişləri.** Qrant Sazişi forma və məzmun etibarilə hər iki Tərəfi qane edəcək və *xüsusən* aşağıdakıları müəyyən edəcəkdir,

(i) Nazirlik (və/ya digər qeyri QTF mənbələri tərəfindən) və QTF (ən azı 50%-i təmin edən qeyri QTF mənbələri ilə) tərəfindən ödənilməli olan planın hazırlanmasi xərclərinin ümumi razılaşdırılmış büdcəsi və faiz dərəcəsi; və
(ii) Cəlb edilməli olan xidmət təminatçısı.

## § 4. Məhdud Resursların Ayrılması

Bu Sazişin imzalanma tarixindən sonra, hər ilin 30 iyun tarixindən gec olmayaraq, QTF təqvim ilinin altı ayı müddətində qrantlar üzrə ayrılması gözlənilən ümumi məbləğin xoş niyyətlə qiymətləndirilməsini dəstəklədiyi barədə Azərbaycan tərəfinə məlumat verəcəkdir. Nazirlik həmçinin Azərbaycanda istifadə üçün təxsis edilən hər hansı ianələrdən qrantlar üzrə ayrılan vəsaitlər barədə ayrıca olaraq məlumatlandırılacaqdır. Hər ilin 1 noyabr tarixindən, QTF özünün smeta xərclərində dəyişiklik olduğuna dair əsaslı dəlillərə malik olduqda Nazirliyi məlumatlandırır.

## § 5. Digər məsələlər

Nazirlik və QTF-nin qarşılıqlı razılığı əsasında hazırkı Sazişə əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər Sazişin ayrılmaz hissəsidir və ayrıca protokollarla rəsmiləşdirilir.

Hazırkı Sazişin təfsiri və ya icrası ilə əlaqədar mübahisə və fikir ayrılıqları yarandığı təqdirdə Nazirlik və QTF onları məsləhətləşmələr və danışıqlar yolu ilə həll edir.

Saziş, QTF-ni Azərbaycan tərəfindən bütün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə diplomatik kanallar vasitəsilə yazılı qaydada məlumatlandırdıqdan sonra qüvvəyə minir və bundan sonra on il müddətinə qüvvədə qalır.

Nazirlik və ya QTF bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsi ilə biri-birini yazılı şəkildə məlumat vermədiyi təqdirdə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 il müddətinədək uzadılır.

Bu Saziş Bakı şəhərində, 05 mart 2019-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır.

Bununla bütün bildirişlər və əlaqə vasitələri yazılı formada QTF-in və Nazirliyin aşağıdakı ünvanlarına göndərilir.

QTF:

c/o Nature Trust Alliance GbR
Friedrich-Ebert-Anlage 36
60325 Frankfurt-Mayn
Almaniya

Nazirlik:

Bəhram Ağayev küçəsi 100A,
AZ 1073, Bakı şəhəri, Azərbaycan

AŞAĞIDAKILARIN TƏSDİQİ OLARAQ, Tərəflər adlarının qarşısında imza etmişlər.

QAFQAZ TƏBİƏT FONDU

__________________________ tərəfindən

İcraçı direktor

AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ

__________________________ tərəfindən

Nazir müavini

Əlavə A

**"Baza ilinin" mənası 2.2-ci bəndin (i) (a) yarımbəndlərində göstərilmişdir.**
**"QTF" Qafqaz Təbiət Fondu deməkdir.**

**"Ödənilmiş xərclər"** təbii areaİların toxunulmamış və bütöv vəziyyətdə qalmasına və vəhşi heyvan populyasiyalarının sabit şəkildə saxlanılmasına təminat vermək və spesifik XMOPTƏ kateqoriyasının yerinə yetirilməsinə təminat vermək üçün Xüsusi Mühafizə Olunan Prioritet Təbiət Əraziləri (XMOPTƏ) çərçivəsində fəaliyyət növlərinin dövri xərcləri mənasını kəsb edir. Buna misal olaraq ödənilmiş xərclərə aşağıdakılar daxildir:

- İşçi heyətin əməkhaqları və təlim xərcləri;
- Müntəzəm əsasda patrul və monitorinq üzrə yanacaq xərcləri;
- Lazımi avadanlıq və ləvazimatların alınması və əvəz edilməsi, o cümlədən patrul və monitorinq üçün nəqliyyat vasitələri;
- Ofisin cari xərcləri;
- Mövcud infrastruktur və avadanlıqların saxlanılması (texniki xidmət) məsrəfləri;
- Xüsusi Mühafizə Olunan Təbiət Ərazisinin idarəetmə tədbirləri ilə əlaqədar tədqiqat;
- İctimai məlumatın yayılması və məlumatlılığın artırılması üzrə xərclər.

Buna misal olaraq ödənilmiş xərclər aşağıdakıları ehtiva etmir: torpaqlar üzərində mülkiyyət hüququnun əldə edilməsi və yaxud icarə maraqları; yeni obyektlərin tikintisi və yaxud köhnə obyektlərin tam bərpa edilməsi. Obyektlərin icarə məsrəfləri ödənilmiş xərclərə daxildir.

Ödənilmiş xərclər həmçinin xüsusi mühafizə olunan təbiət ərazisi növünə uyğun olmalıdır: məsələn, milli park üçün turizm infrastrukturunun saxlanılması (texniki xidmət) məsrəfləri ödənilmiş xərcə daxildir, lakin bu ciddi qorunan təbiət ərazisinə şamil edilmir.

"Ekoregional Plan" 2012-ci ildə tərtib olunmuş, vaxtaşırı düzəliş edilə və yenilənə bilən "Qafqaz üzrə Ekoregional Təbiətin Mühafizəsi Planı" adlı sənəd mənasını verir .

"Nazirlik" Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi mənasını verir.

"Əməliyyat Planının" mənası 2.2-ci bəndin (i) (a) yarımbəndlərində müəyyən edilib.

**"XMOPTƏ"** və yaxud **Xüsusi Mühafizə Olunan Prioritet Təbiət Ərazisi** Azərbaycanda xüsusi mühafizə olunan təbiət əraziləri mənasını kəsb edir ki:

- onlar Ekoregional Planda müəyyən edildiyi kimi Xüsusi Mühafizə Olunan Prioritet Təbiət Ərazisinin tərkib hissəsidir;
- onların əhatə dairəsi daxilində olan fəaliyyət növləri Prioritet Qoruq Ərazisinin ümumi torpaq istifadəsi sxeminə daxildir;
- onlar əsasən biomüxtəlifliyin (milli park, təbiət qoruğu, tam qoruq və ya yasaqlıq kimi olub-olmamasına baxmayaraq) qorunması məqsədilə daimi olaraq qanuni surətdə qorunur; və

- onlar Ekoregional Planda müəyyənləşdirilmiş bioloji prioritetlər əsasında QTF-nin direktorlar şurasının QTF üçün böyük əhəmiyyət kəsb edən xüsusi mühafizə olunan prioritet təbiət əraziləridir.

Əlavə B

## Əməliyyat Planları üçün İlkin Standartlar

### 1. Əməliyyat planı və ya ekvivalent sənəd(lər) üzrə mündəricat tələbləri

#### 1.1Əməliyyat planının əhatə dairəsi və mündəricatı

Əməliyyat planı və yaxud ekvivalent sənəd(lər) aşağıdakıları ehtiva edir:

- əsas idarəetmə tapşırıqları ilə əlaqədar plan vasitəsilə əhatə olunmaqla XMOPTƏ administrasiyasının il ərzində həyata keçirməyi planlaşdırdığı fəaliyyət növləri bunlardır: patrul xidməti; biomüxtəliflik; monitorinq; torpaqların idarəedilməsi; xəritəçəkmə; turist və rekreasiya; ictimai məlumatlılıq, icma təbliğatı və oxşar layihələr; daimi və işlək qurğular; avadanlıq və binalar; insan resursları; maliyyə idarəetməsi; funksional təşkilatçılıq.
- Planlaşdırılmış tədbirlərin həyata keçirilməsi üçün cəlb ediləcək maddi resurslar;

#### 1.2. Əməliyyat planının İdarəetmə Planı ilə məntiqi əlaqəsi

XMOPTƏ üçün səmərəli idarəetmə planı mövcuddursa, 1.1-ci bənddə qeyd olunmuş fəaliyyət növləri idarəetmə planının icrasında öz həllini tapmalıdır və əməliyyat planında və ya ekvivalent sənəd(lər)də planlaşdırılmış fəaliyyət növləri ilə idarəetmə planındakı strateji tədbirlər (idarəetmə tədbirləri) arasında aydın məntiqi əlaqə olmalıdır.

Əlavə C

**Büdcə üzrə İlkin Tələblər**

1. Baza ili/büdcə ili (Büdcə ili E Əlavəsində müəyyən edilir)

Hökumət büdcəsinin maliyyəsi ilə QTF və digər gəlir mənbələri arasında mədaxil büdcəsi fərqləndirilməlidir.

Məxaric büdcəsi kapital xərcləri ilə cari (istismar) məsrəfləri arasında fərqləndirilməli, eləcə də əməkhaqqı və digər cari (istismar) məsrəfləri (yanacaq, texniki xidmət, kommunal xidmətlər, təlim, təhsil proqramları və s.) arasında müvafiq təfərrüatlar təmin edilməlidir. Kapital xərclərə gəldikdə isə, onlar ödənilmiş xərclər kimi müəyyən edilmiş və ödənilmiş xərclər kimi müəyyən edilməmiş xərclər kimi müəyyən edilməlidir.

Baza ilinin büdcəsi Mövcud Xüsusi Mühafizə Olunan Təbiət Ərazisi və bütün büdcə illəri üçün nəzərdə tutulduqda, büdcə cari ilin büdcəsi ilə müqayisədə başlıca dəyişmələrin izahını özündə əhatə etməlidir.

QTF vəsaitlərinin spesifik ödənilmiş xərc predmetlərinə təxsis olunması büdcədə nəzərdə tutulursa, büdcə qeyri QTF vəsaitləri ilə təmin olunan bu cür predmetlərin payını (əgər mövcuddursa) və QTF-nin maliyyələşdirməsi ilə təmin olunan payı göstərməlidir.

Bütün büdcə illəri baxımından və hər hansı bərpa edilən qrantda baza ili üzrə məxaric büdcəsi həmçinin ödənilmiş xərc kimi QTF ilə razılaşdırılmalı olan müvafiq təminatı ehtiva etməlidir:

(i) Azərbaycan tərəfi ilə razılaşdırmaqla QTF-nin təyin etdiyi sərbəst auditor tərəfindən auditin aparılması; və

(ii) Azərbaycan tərəfi ilə razılaşdırmaqla QTF-nin təyin etdiyi müstəqil ekspertlər tərəfindən (həmin ilin 31 may tarixindən gec olmayaraq tamamlanmalı və QTF-yə təqdim edilməlidir) texniki icmalın keçirilməsi və Azərbaycan tərəfindən təsdiqi. Texniki icmalın əhatə dairəsi QTF tərəfindən müəyyən edilir və bu, idarəetmənin effektivliyi, İdarəetmə Planının və Əməliyyat Planının səmərəli istifadəsi, əməliyyat və digər məqsədlərin əldə olunması və Əməliyyat Planının və ya İdarəetmə Planının ümumi icrasını əhatə edə bilər.

Bu cür auditin və texniki icmalın xərci QTF vəsaitləri tərəfindən tam təmin edilməli olan xərc kimi təxsis edilə bilər. Buna baxmayaraq, QTF öz mülahizəsinə əsasən illik texniki icmalın büdcədə nəzərdə tutulması və həyata keçirilməsi tələbindən imtina edə bilər, bu şərtlə ki, bu cür icmal bütün hallarda hər üçillik qrant dövründə ən azı bir dəfə büdcədə nəzərdə tutulsun və həyata keçirilsin.

2. Sonrakı İllər.

Gəlirlərlə bağlı, qiymətləndirilmiş büdcə hesablanan QTF, hökumət və digər gəlirləri göstərməlidir. Əməliyyat xərcləri kimi hesab edilməklə ödənilmiş xərclərin hökumət tərəfindən maliyyələşdirilməsinin planlaşdırılması inflyasiyaya uyğunlaşdırılmış baza əsasında baza ilində nəzərdə tutulduğuna ən azı ekvivalent olmalıdır.

Xərclərlə bağlı, qiymətləndirilmiş büdcə texniki xərclər və kapital xərcləri arasında fərqləndirilməlidir, lakin məsrəflərin müfəssəl təsnifatının təmin edilməsi zəruri deyildir. Buna baxmayaraq, bütün ödənilmiş xərclər, o cümlədən kapital qoyuluşu büdcəsinin tərkib hissəsi olan ödənilmiş xərclər büdcədə nəzərə alınmalıdır.

Büdcədə, həmçinin idarəetmə planında (yeni obyektlərin tamamlanması və müvafiq heyət və yaxud texniki xidmət üzrə xərclərin artımı kimi) nəzərdə tutulmuş inflyasiya qiymətləndirməsi (x) və XMOPTƏ-də hazırlıq işləri kimi məsələlərdən yaranan xərclərdə (əgər mövcuddursa) proqnozlaşdırıla bilən artımlar və ya azalmalar üzrə qiymətləndirilmiş bazaya dair hesabat verməlidir. Bu cür qiymətləndirilmiş büdcə baza ili və ya əvvəlki il ilə müqayisədə gözlənilən inflyasiya və digər başlıca dəyişmələrin izahını əks etdirməlidir.

Əlavə D

## QTF Qrantlarının Məqsədi baxımından İdarəetmə və Əməliyyat Planları (və ya ekvivalent sənədlər) üzrə Tələblər

### 1. İdarəetmənin planlaşdırılması prosesi üzrə tələblər

#### 1.1 İştirak

1.1.1 İdarəetmə planının Konsepsiyası, Məqsədləri və Strateji Tədbirləri (idarəetmə tədbirləri) XMOPTƏ-nin və onun bufer zonalarının (tətbiq edildikdə) təbii ehtiyatlarından istifadə edən yerli icmaların və ya digər insanların iştirak prosesində işlənib hazırlanmışdır.

1.1.2 Konsepsiya, Məqsədlər və Strateji Tədbirlər (idarəetmə tədbirləri) kifayət qədər praktiki olduğuna görə onun işlənib hazırlanmasında iştirak edənlər arasında ümumi razılıq yolu ilə qəbul edilmişdir.

#### 1.2. Məsləhətləşmə

1.2.1 İdarəetmə planının formal surətdə təsdiq edilməsindən əvvəl idarəetmə planının layihəsi barədə rəylərin verilməsi üçün XMOPTƏ sahəsinin idarə edilməsində ölkə daxilində iştirak edən bütün şəxslərə adekvat imkan yaradılmışdır. Adekvat imkan dedikdə, o nəzərdə tutulur ki, idarəetmə planı layihəsinin hazır olması və aidiyyəti şəxslərin ona rəy verməsinə stimullaşdırılması barədə məsul qurum onları məlumatlandırmaq məqsədilə müvafiq səy göstərmiş və əlaqədar şəxslərə öz rəylərini təqdim etmək üçün münasib vaxt verilmişdir.

1.2.2 İdarəetmə planının yekunlaşdırılması zamanı və onun formal surətdə təsdiq edilməsindən əvvəl idarəetmə planının layihəsinə dair bütün yazılı rəylər lazımi şəkildə nəzərdən keçirilmişdir.

### 2. İdarəetmə planının mündəricatı üzrə tələblər

#### 2.1. İcra müddəti

İdarəetmə planı bütün maddi cəhətlər baxımından XMOPTƏ idarəetməsinin istiqamətləndirilməsi üçün aktual və kafi olaraq qalır.

#### 2.2. Ərazi sahəsi

Əgər XMOPTƏ mühafizə zonasına (bufer zonası) malikdirsə, idarəetmə planı XMOPTƏ administrasiyasının səlahiyyətləri və öhdəlikləri çərçivəsində mühafizə zonasının idarə edilməsinə, eləcə də XMOPTƏ-nin idarə edilməsinə yönəlir.

#### 2.3. Təsvir

İdarəetmə planı ərazinin xüsusiyyətlərini (biomüxtəliflik, mədəni, tarixi və sosial-iqtisadi) və onun istifadə tərzini qoruyacağı dəyərlərin regional və beynəlxalq əhəmiyyətini və onun hüquqi və idarəetmə bazasını əks etdirir.

**2.4. Konsepsiya**

İdarəetmə planı XMOPTƏ-nin (və onun bufer zonasının, əgər mövcuddursa) növbəti 20 və 50 il arasında arzu edilən vəziyyətdə və yaxud şəraitdə olmasını təsvir edən Konsepsiyanı ehtiva edir. Konsepsiya məqsədlərin və strateji tədbirlərin işlənib hazırlanması üzrə məntiqi əsası təmin etmək üçün lazımi şəkildə təfsilatı ilə göstərilir və XMOPTƏ-nin gələcəyi ilə bağlı maraqlanan hər kəs tərəfindən asanlıqla qavranılması və başa düşülməsi üçün kifayət qədər yığcamdır.

**2.5. Zonalaşdırma planı**

2.5.1 Azərbaycan Respublikasının qanunvericiliyində tələb edildiyi təqdirdə və hər hansı milli parkın və yaxud digər xüsusi mühafizə olunan təbiət ərazisinin təyinatı BTMİ-nin II kateqoriyası və ya aşağıdakılara ekvivalent olduqda, zonalaşdırma planı idarəetmə planına daxil edilir.

2.5.2 Zonalaşdırma planı Azərbaycan Respublikasının qanunvericiliyində tələb edildiyi kimi bu cür minimum zonalar yaradır və insan fəaliyyətinin elmi-tədqiqat işlərinə məhdudlaşdırılmış olduğu ciddi mühafizə zonasını ehtiva edir.

2.5.3 Zonalaşdırma planı XMOPTƏ-nin o hissələrini müəyyənləşdirir ki, bununla zonalaşdırma planında və ya idarəetmə planının hər hansı digər hissəsində təsvir edilməklə strateji tədbirlər (idarəetmə tədbirləri) vasitəsilə həyata keçirilən müəyyən strategiyalardan asılı olaraq XMOPTƏ resurslarının ənənəvi istifadəsinə icazə verilməsi davam etdiriləcəkdir.

2.5.4 Zonaların və onların hüdudlarının seçilməsi analoji insan fəaliyyətlərini nəzərdə tutmaqla ərazinin ekoloji vəhdətinin qorunmasına məqsədəuyğun çərçivədə təminat verir.

2.5.5 Qrant tətbiqinin mövzusu olan idarəetmə planı XMOPTƏ üçün birinci olmadığı təqdirdə, əvvəlki idarəetmə planında əks etdirildiyi kimi plan zonalaşdırma planının effektivliyinin yekun qiymətləndirilməsini ehtiva edir və həmin qiymətləndirilmənin nəticələrinin lazımi şəkildə nəzərdən keçirildiyini göstərir.

**2.6. Məqsədlər və Strateji Tədbirlər**

2.6.1 İdarəetmə planı, planın icra müddəti ərzində XMOPTƏ administrasiyasının qarşıya qoyacağı məqsədləri və administrasiyanın həmin məqsədlərə nail olması üçün planlaşdırdığı strateji tədbirləri (idarəetmə tədbirləri) müəyyən edir.

2.6.2 Bu məqsədlər ən azı olaraq aşağıdakıları əhatə etməlidir;
- inzibati idarəçiliyin inkişaf etdirilməsi;
- XMOPTƏ-də biomüxtəlifliyin qorunması;
- mühafizə zonasında (tətbiq edildikdə) davamlı həyat təminatının inkişaf etdirilməsi;
- turizm idarəetməsi (tətbiq edildikdə).

2.6.3 Məqsədlər və strateji tədbirlər (idarəetmə tədbirləri) XMOPTƏ-nin gələcək vəziyyətini müəyyən edən səbəb və nəticələr sisteminin təsvirinə əsaslanır. Səbəb və nəticələr sisteminin təsviri yerli insanların bilikləri daxil olmaqla idarəetmə planın hazırlanması zamanı planlaşdırma qrupunun əldə etdiyi məlumatların mümkün istifadəsini optimallaşdırır.

2.6.4 Qrant tətbiqinin mövzusu olan idarəetmə planı XMOPTƏ üçün birinci olmadığı təqdirdə, əvvəlki idarəetmə planında əks etdirildiyi kimi bu, məqsədlərin və strateji tədbirlərin yekun qiymətləndirilməsini ehtiva edir və həmin qiymətləndirilmənin nəticələrinin lazımi şəkildə nəzərdən keçirildiyini göstərir.

**2.7. Monitorinq planı**

2.7.1 İdarəetmə planı aşağıdakı kimi monitorinq planını əhatə edir:
- idarəetmə planının məqsədlərinin əldə olunmasında uğurun və ya uğursuzluğun və uğursuzluğun səbəblərinin müəyyənləşdirilməsi üçün əsas kimi istifadə ediləcək göstəricilərin seçilməsi üzrə məntiqi dəlilləri sadalayan və izah edən;
- monitorinq üzrə istifadə ediləcək məlumatların mənbələrini təsvir edən;
- məlumatların toplanılması və tutuşdurulması üzrə öhdəlikləri müəyyən edən monitorinq planını ehtiva edir.

**2.8. İcmal dövrü**

2.8.1 İdarəetmə planı planın qüvvədə olma müddətini, onun nəzərdən keçirilməli və təshih edilməli olduğu tarixi, habelə icmal və təshihin təşkil edilməsinə məsuliyyət daşıyan qurumu göstərir.

## Əlavə 1: İdarəetmə planının təsvirinə daxil edilməli olan məlumatlar

### Korporativ məlumatlar

- Yerləşmə yeri
- Ərazi
- BTMİ-nin XMOTƏ kateqoriyası
- Hüquqi status
- İnstitusional/təşkilati struktur
- İnzibati struktur

### Fiziki-coğrafi məlumatlar

- İqlim
- Hidrologiya
- Geologiya

### Bioloji məlumatlar

- Landşaft və məskunlaşma arealları
- Flora
- Fauna

### Sosial və mədəni məlumatlar

- Yaşayış məntəqəsi və əhali
- Cari torpaq istifadəsi (ənənəvi istifadə, otarma)
- Hüquqi mülkiyyət, icarə formasında müvəqqəti sahiblik, sahiblik, istifadə, digər şərtlər və məhdudiyyətlər
- İqtisadi fəaliyyətlər

### Tarixi xülasə

- Arxeologiya
- Tarixi ərazilər

Əlavə E

## Qrant Sazişlərində Gözlənilən Müddəalar

1. **Hesabat.** XMOPTƏ əməliyyatlarına dair müfəssəl yazılı hesabatlar Əməliyyat Planına və bundan irəli gələn hesabatlara nəzərən XMOPTƏ direktoru tərəfindən, eləcə də büdcələrə və bundan irəli gələn hesabatlara nəzərən Nazirlik və XMOPTƏ direktoru tərəfindən QTF-yə təqdim edilməli və QTF-ə təsdiq etdirilməli olan XMOPTƏ əməliyyatlarına dair müfəssəl yazılı hesabatlara aşağıdakılar daxildir:

   (i) Baza ilindən başlayaraq hər ilin sonundan əvvəl razılaşdırılmalı olan tarixədək:

      (a) Çərçivə Sazişinin 2.2-ci bəndinin tələblərinə uyğun olaraq və orijinal Əməliyyat Planında və baza ili üzrə büdcədə göstərilən formada növbəti il üçün yeni Əməliyyat planı və büdcə ("Büdcə ili)" (Büdcənin yalnız büdcə ilini və büdcə ilindən sonrakı ili əhatə etməsi istisna olmaqla); və

      (b) Büdcə baxımından əvvəlki ilin büdcəsi ilə müqayisədə büdcənin təqdim olunduğu ildə hər hansı köklü dəyişmələrin izahı;

      (c) İdarəetmə planında və cari ilin Əməliyyat planında göstərilən əməliyyat, təbiətin mühafizəsi və digər məqsədlərin əldə olunması ilə əlaqədar işlərin gedişinə dair aralıq hesabatı.

   (ii) Qrant müddətində hər ilin sonundan etibarən beş ay ərzində həmin il üzrə büdcəyə daxil edilən və aşağıda göstərildiyi kimi audit olunan formada və büdcədən hər hansı mühüm kənaraçıxmaların izahını özündə cəmləşdirməklə, həmin il üzrə gəlirlərin və xərclərin illik hesabatı.

2. **Ödəniş vaxtının müəyyənləşdirilməsi.** Başqa cür razılaşdırılmayana qədər, qrantlar üç il müddəti ərzində tranşlarla razılaşdırılacaq tarixlərdə bərabər yarımillik tranşlarla iki dəfəyə ödəniləcəkdir.

3. **Ödəniş şərtləri.** Çərçivə Sazişin 2-ci və 3-cü bəndlərinə müvafiq olan büdcə məlumatına əlavə olaraq, qrantın məqsədi və donorun aşağıda qeyd olunan vəziyyətlərindən başqa halları Qrant Müqaviləsində qeyd olunacaq. Başqa cür razılaşdırılmayana qədər, qrant ödənişi şərtləri *xüsusən* aşağıdakı prinsiplərə əsaslanan şərtləri ehtiva edəcəkdir:

   (i) **İlkin Ödəniş.** QTF-yə təqdim edilir: (a) yuxarıdakı (1)(i) yarımbəndində tələb edilən hesabatlar;

   (b) Təsdiq edilmiş büdcəyə uyğun gəldikdə XMOPTƏ üzrə rəsmi büdcə;

   (c) Baza/Büdcə ili üzrə Nazirliyin tərəfindən maliyyələşdirilməsi üçün təqvim;

(d) Baza/Büdcə ili üzrə digər qeyri QTF mənbələrindən hər hansı maliyyələşdirmə üçün təqvim;

(e) Nazirlik tərəfindən təsdiq edilir ki, (x) baza/büdcə və əvvəlki il üzrə büdcədə Nazirlik və hər hansı digər qeyri QTF mənbələri tərəfindən maliyyələşdirilməsi planlaşdırılan bütün məbləğlər onlar tərəfindən maliyyələşdirilmişdir və (y) əvvəlki ilə nəzərən QTF tərəfindən təmin edilən bütün maliyyə vəsaitləri sərf olunmuşdur; və

(f) Bu (i) yarımbəndinə uyğun olaraq təqdim edilmiş məlumatlara və hesabatlara və QTF-nin İcraçı direktoru və ya onun tərəfindən təyin olunmuş nümayəndələrin aktual hesab etdikləri hər hansı digər məsələlərə əsasən QTF vəsaitlərinin səmərəli istifadəsinə dair onların münasib rəyi.

(ii) **İkinci ödəniş.** Aşağıdakılar QTF-yə təqdim edilir:

(a) aşağıda göstərildiyi kimi QTF tərəfindən təyin edilmiş auditorlar tərəfindən yuxarıda 1(ii) yarımbəndi ilə nəzərdə tutulan əvvəlki ili əhatə etməklə və QTF-ni qane edəcək audit rəyini ehtiva etməklə XMOPTƏ-nin gəlirlərinin və xərclərinin hesabatı;

(b) Baza/büdcə ilində Nazirlik və hər hansı digər qeyri QTF mənbələri tərəfindən maliyyələşdirilməsi planlaşdırılan bütün məbləğlər 30 iyun tarixinədək onlar tərəfindən maliyyələşdirildiyinin təsdiqi;

(c) bu (ii) yarımbəndinə uyğun olaraq təqdim edilmiş məlumatlara və hesabatlara və QTF-nin İcraçı direktoru və ya onun tərəfindən təyin olunmuş nümayəndələrin aktual hesab etdikləri hər hansı digər məsələlərə əsasən QTF vəsaitlərinin səmərəli istifadəsinə dair onların münasib rəyi.

4. **Qrantın predmeti.** Qrantın predmetini Azərbaycan Respublikasının Xüsusi mühafizə olunan təbiət ərazilərində müasir infrastrukturun qurulması işləri təşkil edir.

5. **Ödəniş mexanizmi.** [QTF ödənişlərinin birbaşa olaraq fərdi XMOPTƏ-lərə ediləcəksə (XMOPTƏ-nin müstəqil hüquqi statusu olduğu təqdirdə mümkündür) və yaxud QTF-dən qrantların alınması və ödənilməsi üçün Nazirliyin müstəsna şəkildə istifadə edilməli olan ayrıca hesabına köçürüləcəksə və Qrant Sazişində razılaşdırılmalı olan müfəssəl qaydalarla tənzimlənəcək ödənişlər]. ***[Nazirlik ilə keçirilən görüşlərdən sonra tamamlanmalıdır.]***

6. **Sənədlərə çıxış.** XMOPTƏ və Nazirlik QTF nümayəndələri (QTF tərəfindən təyin edilən üçüncü tərəflər daxil olmaqla) tərəfindən aşağıdakı sənədlərin istifadəsini təmin edirlər; (i) XMOPTƏ gəlirlərinin və xərclərinin illik hesabatının müvafiq auditinin aparılmasına imkan yaratmaq üçün Nazirliyin və XMOPTƏ-nin bütün aidiyyəti maliyyə sənədləri və (ii) maliyyə vəsaitlərinin səmərəli istifadəsini qiymətləndirmək üçün XMOPTƏ-nin texniki, elmi və istismar sənədləri.

7. **Əməkdaşlıq.** XMOPTƏ və Nazirlik aşağıdakı şərtlərlə əməkdaşlıq edir: (i) hər ilin sonundan etibarən 5 ay ərzində XMOPTƏ-nin audit olunmuş maliyyə hesabatlarının QTF-na təqdim etmək məqsədilə ən azı ildə bir dəfə XMOPTƏ hesablarının

auditinin aparılması üçün QTF tərəfindən təyin edilmiş auditorlar ilə; və (ii) idarəetmənin effektivliyini, İdarəetmə Planının və Əməliyyat Planının səmərəli istifadəsinin, əməliyyat və ya digər məqsədlərin əldə olunmasını və yaxud Əməliyyat Planının və ya İdarəetmə Planının ümumi icrasını qiymətləndirmək məqsədilə QTF tərəfindən vaxtaşırı olaraq təyin edilə biləcək hər hansı texniki məsləhətçilər ilə.

Başqa cür razılaşdırılmayana qədər, həmin auditorların və məsləhətçilərin əməkhaqları və xərcləri QTF tərəfindən təmin edilən və bu məqsədlə təxsis olunan qrant vəsaitlərindən ödənilir.

8. **İstifadə edilməmiş/Yalnış istifadə edilmiş maliyyə vəsaitlərinin qaytarılması.** XMOPTƏ və Nazirlik qrant müddətinin sonunda istifadə edilməmiş hər hansı qrant vəsaitlərini təcili olaraq QTF-yə geri ödəyir. Səhv istifadə edilmiş və yaxud idarəetmə planında nəzərdə tutulmayan məqsədlər üçün digər şəkildə istifadə edilmiş hər hansı vəsaitin ekvivalent məbləği bu cür yanlış istifadənin və yaxud digər məqsədlər üçün bu cür istifadənin müəyyən edilməsindən sonra XMOPTƏ və yaxud Nazirlik tərəfindən QTF-yə qaytarılır.

9. **Gələcək seçilməmə.** Qrant vəsaitləri səhv və yaxud idarəetmə sazişində nəzərdə tutulmayan məqsədlər üçün digər şəkildə istifadə edildikdə Şura tərəfindən müəyyən edilmiş müddət üzrə XMOPTƏ-nin gələcək qrantlara seçilməsi qeyri-münasib hesab olunur.

Əlavə F

## Cari Effektiv Qrant Ayırma Meyarları

**Bərpaolunmazlıq** - qlobal cəhətdən nəsli kəsilmək təhlükəsi qarşısında olan və məhdud yayılma arealında məskunlaşan növlərə malik XMOPTƏ. Ən bərpaolunmaz XMOPTƏ daha çox tək yaşamaq qabiliyyətli populyasiyanı və/ya ən böyük genetik müxtəlifliyə malik hədəf növlərini özündə cəmləşdirir (yəni, BTMİ-nin Qırmızı Kitabında səciyyələndirilərək təsnif edilmiş növlər);

**Tipiklik** - ekoregionun xüsusi mühafizə olunan təbiət əraziləri sistemi boyunca endemik növlərin və məskunlaşma və yayılma areallarının tam spektrinin təmsil olunduğuna təminat verməyə xidmət edən XMOPTƏ;

**Zərurilik** - təbiətin mühafizəsi üzrə təxirəsalınmaz imkanı təcəssüm etdirən və/ya endemik və/yaxud nəsli kəsilmək təhlükəsi qarşısında olan növlərə və onların məskunlaşma və yayılma areallarına doğru kəskin təhlükəyə məruz qalan XMOPTƏ;

**Texniki-iqtisadi əsaslandırma** - dəstəkləyici yerli və regional mühit daxilində mövcud olan, yəni yerli icmanın dəstəyini nümayiş etdirə bilən XMOPTƏ; və

**Regional əhəmiyyətlilik** - Ekoregional Təbiətin Mühafizəsi Planının ümumi icrasını və effektivliyini stimullaşdıran və gücləndirən XMOPTƏ.